**Beynəlxalq Valyuta Fondu:**
**Azərbaycanda iqtisadi artım yüksəlib**

Beynəlxalq Valyuta Fondu (BVF) «Dünya İqtisadiyyatının İnkişaf Perspektivləri» («World Economic Outlook») adlı yeni hesabatını dərc edib. Sənəddə dünya ölkələrinin 2012-ci il üzrə makroiqtisadi inkişaf göstəriciləri, maliyyə-bank sektorundakı sabitlik vəziyyəti, ölkələrin daxili və xarici borc öhdəliklərinin durumu, həyata keçirilən pul-kredit siyasəti və digər komponentlər təhlil edilib. Eyni zamanda, hesabatda 2013-cü ildə dünya iqtisadiyyatında baş verəcək iqtisadi proseslər, gözlənilən makroiqtisadi və sosial indikatorlar barədə proqnozlar açıqlanıb. Fondun ekspertləri 2012-ci ilin sonuna kimi keçid dövrünü yaşayan bir sıra dövlətlərin iqtisadi vəziyyətində müəyyən irəliləyişlərin olacağını güman edirlər. Eyni zamanda, qurumun mütəxəssisləri bəzi ölkələrin əvvəlki kimi böhran meyilləri ilə bağlı iqtisadi geriləməyə məruz qalacağını da proqnozlaşdırırlar. Dünya iqtisadiyyatında zəif təmayüllər hələ davam edir və gələn il də iqtisadi dirçəliş yavaş templə gedəcək. 2012-ci ildə dünya iqtisadiyyatında artım 3,3% olacaq. Fond hesab edir ki, ABŞ-da iqtisadi problemlər, avrozonada isə uzunmüddətli böhranın davam etməsi makroiqtisadi vəziyyət sabit, bir sıra regionlarda neqativ meyillər şəraitində müşayiət olunacaq. Çin, Hindistan, Rusiya və Braziliya kimi bazarlarda da iqtisadi inkişaf aşağı tempdə müşahidə olunacaq. Maliyyə böhranını aşmaqda olan Mərkəzi Asiya ölkələrində inflyasiya hələ də hiss olunacaq səviyyədə - 7,5%-dir. Yeni resessiyalar fonunda bu rəqəm 2012-ci ilin sonuna 6,6% ola bilər.

«World Economic Outlook» hesabatında qeyd olunur ki, 2012-ci ildə Azərbaycanda ÜDM-in artım tempi 3,9% təşkil edəcək, iqtisadi artım maliyyə sabitliyinin möhkəmlənməsinə şərait yaradacaq. BVF-nin ekspertlərinin qənaətinə görə, Azərbaycan hökuməti ölkədə makroiqtisadi sabitliyin saxlanması, milli iqtisadi potensialın artırılması, neft sektoru amilinin azalması və qeyri-neft sektorunun inkişafı, əlverişli investisiya və biznes mühitinin yaradılması siyasəti yürüdür. Azərbaycan iqtisadiyyatı dünya maliyyə-iqtisadi böhranına uğurla tab gətirib və artım tendensiyasını saxlayıb. Son illər ərzində məhz qeyri-neft sektorunun artımı neft hasilatının və dünyada neftin qiymətlərinin azalması fonunda ümumi iqtisadi artımı təmin edib. Həyata keçirilən praqmatik, təmkinli və düşünülmüş iqtisadi strategiya respublikamızın siyasi və iqtisadi sabitliyi üçün dərin əsaslar yaradıb, inkişafı sürətləndirib. Ölkəmizdə güclü maliyyə resursları formalaşıb. Respublikamızın xarici ticarət dövriyyəsindəki pozitiv meyillər, neft ixracının coğrafiyasının genişlənməsi, yeni nəql marşrutlarının istifadəyə verilməsi və yanacaq resurslarının nəqlinin çoxalması, qeyri-neft sektorunun valyutatutumlu sahəyə çevrilməsi Azərbaycanın orta gəlirli ölkələr statusuna malik olmasını möhkəmləndirib.

BVF 2013-cü ildə Azərbaycanda ÜDM-in artım tempini 2,7%, 2014-cü ildə isə 3,1% proqnozlaşdırır. Digər proqnozlara əsasən, 2012-ci ildə ölkəmizdə inflyasiyanın səviyyəsi 6%, 2013-cü ildə 5% təşkil edəcək. Azərbaycan hökuməti inflyasiyanın qarşısının alınması ilə bağlı dövlət orqanlarının koordinasiya olunmuş birgə fəaliyyəti sayəsində qiymət indeksini nəzarətdə saxlamağa qadirdir. Təşkilatın ekspertlərinin fikrincə, güclü daxili tələbat, istehlak bazarının həcminin böyüməsi, əməkhaqqı artımı, eləcə də daxili kreditin genişləndirilməsi inflyasiyanın artmasında əsas elementlər kimi çıxış edəcək. Amma bütün bunlara baxmayaraq, ölkədə iqtisadi inkişafın yüksəlməsi və əhalinin real pul gəlirlərinin inflyasiya göstəricisindən 2-2,5 dəfə artıq olması iqtisadiyyatı mənfi təsirlərdən qorumuş olacaq, vətəndaşların sosial vəziyyətinə təsir göstərməyəcək.

Region ölkələrinin xarici və daxili borcları ilə bağlı vəziyyəti şərh edən təşkilatın ekspertləri ölkələrin əksəriyyətində daxili borcun daha çox özəl sektora aid olduğu qənaətindədir. Buna səbəb maliyyə böhranı nəticələrinin həmin ölkənin tikinti və bank sektorunu vurması olub. Azərbaycanın daxili borc probleminin olmadığını diqqətə çatdıran fondun mütəxəssisləri ölkəmizin xarici borc üzrə də çətinliyinin olmadığını bildirirlər. Təşkilat respublikamızda əhalinin real pul gəlirlərinin artım dinamikasına da nəzər salaraq bu istiqamətdə pozitiv indikatorların qeydə alınmasını təqdir edir.

Ümumiyyətlə, Azərbaycan region ölkələri içərisində xarici borc məsələsində çox əlverişli və yaxşı mövqeyə malikdir. Ölkəmizin xarici borcu 3,7 milyard dollar təşkil edir ki, bu da ÜDM-in 8%-dən aşağı rəqəmdir. Ölkəmizin xarici borcu strateji valyuta ehtiyatlarından təxminən 9 dəfə azdır ki, bu da maliyyə sabitliyi üçün çox mühüm rol oynayan faktor sayılır.

Xatırlatma: Beynəlxalq Valyuta Fondu dğnyada ən iri maliyyə institutlarından biridir. Əsası 1944-cğ ildə qoyulmuş bu qurumun əsas məramı valyuta-maliyyə sahəsində beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və tarazlı inkişafa şərait yaratmaq, ğzv ölkələrin iqtisadi yğksəlişinə yardımzı olmaq, onların iqtisadiyyatı ilə bağlı təhlillər aparmaqdır.

Elbrus CƏFƏRLİ